## HARDASAN

Dizimin qüvvəti, gözümün nuru,
Sevgi adlı qəbahətim hardasan?
Günəşli gündüzüm, ayım, ulduzum,
Sevmək cinayətmi, söylə hardasan?

Gilə-gilə düzülübsən üzümə,
Axtarıram görünmürsən gözümə.
Lənətmi yağdırım özüm-özümə,
Sevgim qəbahətim, söylə hardasan?

Səni sevə-sevə ölürəm hər gün,
Yanımda görürəm, bilirəm hər gün.
“Yarama məlhəmsən” - deyirəm hər gün.
Söylə ülviyyətim, söylə hardasan?

Tənəm, qınağımsan, həm də əzabım,
Mahirə, söyləmə tükənib tabım.
Hələ bu həyatla çoxdu hesabım,
Şerim, şeriyyətim söylə hardasan?

## DOLANIR

Özümü aldada bilmirəm, gülüm,
Dərə, təpə,  düz başıma dolanır.
Guya ki, həsrətə dözürəm, vallah,
Kədər dönür öz başıma dolanır.

Öz evimdə, otağımda qəribəm,
Mən əkdiyim öz bağımda qəribəm,
Alan yoxdu gövhərimi əridəm,
Dönür, dönür söz başıma dolanır.

Fəryadımdan ay dolanmır, il yanır,
Günəş donur, ay soyuyur, dil yanır,
Susmur ürək, vurmur daha bil yanır,
Asta-asta köz başıma dolanır.

Düşünmə ki, dözümlüyəm, dözərəm,
Sevgim ilə bu dünyanı bəzərəm,
Kölgən olub addım-addım gəzərəm,
Qəm hörülü iz başıma dolanır.

Elə yandın külün qaldı, Mahirə!
Əldən çıxdı gülün qaldı, Mahirə!
Daha nəyin, nəyin qaldı, Mahirə!
Əlli ötüb, yüz başıma dolanır!

## NƏDİR?

Məni qılınc kimi kəsəndə ayaz,
Dönüb gülə-gülə gəlməyin nədir?
İndi unutmuşam olub-keçəni,
Belə şirin-şirin gülməyin nədir?

Sanırsan qaytara bilərsən geri,
Yenə əvvəlkitək ötən günləri,
Çalıb ömrümüzdən şirin illəri,
Dünya məhək daşı, gülməyin nədir?

Qəlbimi ovutmur nə çəmən, nə çay,
Qəlbimi ovutmur nə ulduz, nə ay,
Təkcə kədər olub ömrə şirin pay,
Bilirsən, duyursan gülməyin nədir?

Zamanı kim tutub saxlaya bilər,
Zəmanə ki əlin bağlaya bilər?
Ağlasan gözünün yaşınmı silər?
Zalımdı, zülmdü gülməyin nədir?

Saçıma yağıbdı qarı dağların,
Mahirə, talanıb varı dağların,
Bundan sonra sənin kimi ağların,
Könlün ala-ala gülməyin nədir?

## EŞQ GƏMİSİ

Ümmanlar içində gəmim dolanır,
Onu yola salır, ona boylanır.
Söndürmür odumu, sönmür alovum
Qəlbim od tutubdur, yanır, hey yanır.

Ümmanlar içində üzür ümmanım,
Daha kəsilibdi, yoxdu gümanım.
İsrarım, inadım nə yaxşı çoxdur,
Göylərə ucalır ahım, amanım.

Nə ləpədöyəni, nə ləpəsi var,
Nə də sahilboyu bir təpəsi var.
Gedir uzaqlara üzür, qayıtmır.
Allah, bu gəminin bir dönəsi var?

Lövbəri, ləngəri yoxdu dayanmır,
Onsuz da görünmür, sahil aramır.
Dərinlik axtarır, dərinlik gəzir,
Üzür uzaqlara, üzür qayıtmır.

Bu mənim gəmimdir, eşq gəmisidir,
Gəmiyə minənlər eşq dəlisidir.
Demirəm dəryada qərq olasıdır.
Ürəyi yandırar, odu söndürər,
Mərdanə dolanıb mərd öləsidir.

## İNDİ

İndi gözümdə eynək, indi əllərim titrək,
Baxışlar daha yorğun, baxışlar daha ürkək.
Sinəm qaynar qazandı, fələk nəyi qazandı?
Sən dem, tale yazan özü qəbir qazandı.
İndi gözlərimdəki tor dünyanı sarıyıb.
Bir zaman al-yaşıldı indi dünya saralıb.
Bilmirəm kimə deyim, kimdən cavab gözləyim,
İtirdiyim illərə kimdən hesab gözləyim?
Qazandığım nə oldu, nələri itirmişəm,
Ömrümə qəm, kədəri mən necə gətirmişəm?
Qarı necə sevmişəm ələnibdi başıma,
Sevgimdə uğur hanı dönübdü göz yaşıma.
Dumanına bürünüb, çənində sürünürəm,
Sənsiz quru qəfəsəm, sadəcə sürünürəm.
Mahirə, əldə sazın, dildə söhbətin-sözün,
Tükənsə taqət, dözüm qalarmı yolun, izin!



■ Mahirə Nağıqızı